# Cəlilabadlı gənclərin qaynar həyatı

❒ ***İki yüz mindən artıq əhalisi olan Cəlilabadda gənclərin hərbi-vətənpərvərlik və mənəvi tərbiyəsi, onların yaradıcılıq qabliyyyətinin üzə çıxarılması, asudə vaxtlarının səmərəli təşkili və idmanda nailiyyətlər qazanması üçün hər cür şərait yaradılıb. Gənclər rayonun həyatında fəal iştirak edir, onun tərəqqisinə layiqli töhfələr verirlər.***

El bayramlarında, tarixi günlərdə, ictimai-siyasi həyatda maraqlı tədbirləri ilə seçilən cəlilabadlı oğlan və qızlar "Gənclər günü"nün 20-ci ildönümünün qeyd olunduğu bu il daha qaynar həyat nümunəsi göstərirlər. Elə bayramın keçirildiyi fevral ayının 2-də rayonun ictimai-siyasi həyatında, təhsil




sahəsində seçilən gənclərin və mötəbər yarışlarda xüsusilə fərqlənmiş idmançıların mükafatlandırılması buna bariz misaldır. Gənclər və idman idarəsinin "5 Mart - Bədən tərbiyəsi və İdman günü"nə həsr olunmuş toplantısı da yaddaqalan olub.

Xəmsə" Milli İntellektual oyunu üzrə gənclər arasında keçirilən VIII Azərbaycan çempionatının zona birinciliyində Cəlilabad təmsilçilərinin fərəhli nəticələr göstərməsi də qeyd edilə bilər.

Gənclər arasında hərbi-vətənpərvərlik tərbiyyəsinin gücləndirilməsi istiqamətində də rayonda ardıcıl işlər görülür. Ümumtəhsil məktəblərində ibtidai hərbi-hazırlıq fənninin daha yüksək səviyyədə keçirilməsinə diqqət yetirilir. Şagirdlərin müasir hərbi-hazırlıq biliklərinə daha dərindən yiyələnməsi və milli ordunun hərbi hissələrində gənclər arasında ictimai-siyasi iş aparılması üçün məqsədilə ilin əvvəlində Gənclər və İdman İdarəsi ilə "N" saylı hərbi hissə arasında müqavilə bağlanıb. Analoji tədbirlərdə ordumuzun zabit və əsgərləri yaxından iştirak edirlər. "Şahin" hərbi idman oyunu üzrə mart ayında rayonun 74 orta məktəbində maraqlı yarışlar keçirilib, 2254 nəfər qüvvəsini sınayıb. "Şahin"in Cəlilabad şəhər mərkəzi stadionunda keçirilmiş rayon və Neftçala rayonunda keçirilən zona birincilikləri iştirakçılara unudulmaz təsir bağışlayıb. Cəlilabadlı "şahin"lər 8 iştirakçı rayon komandasını üstələyərək zona yarışlarının qalibi olub.

Aprel ayında "Marş İrəli" VMH çoxnövçülük oyunlarının məktəbdaxili yarışları keçirilib. Yarışların proqramına 100 metr məsafəyə qaçış, turnikdə dartınma, qumbaraatma və 2000 metr məsafəyə kross qaçışı daxil idi. Yarışlarda məktəblərin 168 komandası, 840 şagirdi, rayondaxili zona birinciliyində 70 məktəb komandası və 350 şagird iştirak edib. "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon çempionatı Cəlilabad şəhər mərkəzi stadionunda keçirilib. Çempionatda rayonun 12 tam orta məktəbi iştirak edib. Cəlilabad şəhər 7 saylı tam orta məktəbin komandası 1-ci, Ocaqlı kənd 1 nömrəli orta məktəbi 2-ci, Alar kənd 1 nömrəli orta məktəbi isə 3-cü yeri tutub. "VMH" poliatlon çoxnövçülük üzrə respublika çempionatının zona yarışı da Cəlilabadda keçirilib. Yarışda respublikanın şəhər və rayonlarından 10 komanda - Astara, Masallı, Lerik, Yardımlı, Biləsuvar, Salyan, Cəbrayıl, Xocavənd, Fizuli və Cəlilabad kollektivləri




iştirak ediblər. Cəlilabad komandası ən güclü olub. Yardımlı 2-ci, Cəbrayıl 3-cü yerə layiq görülüb.

"Sərhəd" hərbi-idman oyunlarının məktəbdaxili yarışlarında Buravar, Şatırlı, Əsədli, Ləkin, Musalı, Zəhmədabad, Kövüzbulaq 1 nömrəli, Məlikqasımlı, Bayxanlı, Qarakazımlı tam orta məktəblərindən 100-ə yaxın şagird iştirak edib. Rayon birinciliyi Əsədli kənd Sərhəd komendantlığında keçirilib. Yarışda 10 komanda qüvvəsini sınayıb və Ləkin kənd tam orta məktəbinin hərbi idmançıları qalib gəliblər.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin iş planının icrasını təmin etmək və gəncləri hərbi xidmətə həvəsləndirmək məqsədilə 14 aprel 2016-cı ildə Cəlilabad rayonundakı Heydər Əliyev Mərkəzində çağrışyaşlı gənclərlə görüş olub və konsert proqramı təqdim edilib. Tədbirə rayonun gəncləri, ictimaiyyət nümayəndələri, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, şagirdlər, tələbələr və müəllimlər, ümumilikdə 800 nəfər qatılıb. Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, Gənclər və İdman Nazirliyinin Vətənpərvərlik və Vətəndaşlıq sektorunun müdiri Əli Məmmədov, Gİİnin rəisi Ramin Rəhimov, Cəlilabadda yerləşən Daxili Qoşunlar hissəsinin giziri Rüstəm Rüstəmov çıxış ediblər.

May ayında isə "UMH" poliatlon çoxnövçülüyü üzrə Qaxda keçirilmiş respublika çempionatında Cəlilabad komandası "gümüş" pillədə qərarlaşıb. Fövqəlada Hallar Nazirliyinin Cənub Regional Mərkəzi, rayon təhsil şöbəsi, həmçinin gənclər və idman idarəsinin birgə təşkilatşılığı ilə Cəlilabad şəhər mərkəzi stadionunda "Gənc xilasedici və yanğınsöndürən" yarışı keçirilib. Birincilikdə 6 məktəb komandası iştirak edib, Cəlilabad şəhər 1 nömrəli tam orta məktəbinin komandası qalib adını qazanıb. Lənkəranda təşkil olunan zona birinciliyində isə Cəlilabad komandası 3-cü yeri tutub.

Dövlət Sərhəd Xidmətinin Göytəpədəki hərbi hissəsində keçirilən "Sərhəd hərbi-idman oyunu üzrə respublika zona yarışında da Cəlilabad komandasının adı 1-ci olub. İki ay öncə isə Xızı rayonunda keçirilən Sərhəd hərbi-idman oyunu üzrə respublika birinciliyində ən güclü olduğunu sübuta yetirən Cəlilabad komandası Gənclər və idman, Təhsil nazirliklərinin, habelə Dövlət Sərhəd Xidmətinin diplomlarına və mükafatına layiq görülüb.

Milli Ordu Günü münasibətilə "N" saylı hərbi hissədə əsgər və zabitlərlə görüşən rayon gəncləri musiqili-əyləncəli proqram təqdim ediblər. Ordu ilə xalqın birliyi nümayiş etdirilib.

İdman bölmələrində məşğul olan rayon gəncləri də qalibiyyət ənənəsini davam etdirirlər. Belə ki, 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş boks turnirində və açıq birincilikdə Cəlilabaddakı UGİM təmsilçiləri 1-ci yeri tutublar. Yunan-Roma güləşi, şahmat və ağırlıqqaldırma üzrə rayon birincilikləri, taekvondo üzrə yarış, basketbol üzrə "Qış kuboku" respublika turniri də cəlilabadlıların fəal iştirakı ilə keçib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş futbol üzrə açıq birincilikdə 22 komanda iştirak edib. Bu növ üzrə rayon yarışında 12 komanda arasında Üçtəpə kənd futbolçuları 1-ci, Uzuntəpə kənd komandası isə II yeri tutub.

Yeniyetmələrin X Respublika Oyunlarının proqramına daxil olan sərbəst güləş üzrə zona yarışı Cəlilabad şəhərində keçirilib. Yarışda bu rayondan 47 idmançı iştirak edib və 5 nəfər 1-ci, 1 nəfər 2-ci, 11 nəfərsə 3-cü yerə layiq görülüb. Ümumi komanda hesabında Cəlilabad 147 xalla I yeri tutub. Oyunların proqramına daxil olan Yunan-Roma güləşi üzrə zona yarışında Cəlilabaddan 16 idmançı iştirak edib: 3 nəfər 2-ci, 2 nəfərsə 3-cü yerə layiq görülüb.

Balakəndə 2002-2003-cü il təvəllüdlü yeniyetmələr arasında sərbəst güləş üzrə respublika birinciliyində də cəlilabadlılar məhsuldarlıq göstəriblər. Belə ki, rayonu təmsil edən 17 idmançıdan 1-i qalib elan olunub, 1 nəfər 2-ci, 3 nəfər 3-cü, 2 nəfər 5-ci yerlə kifayətlənməli olub. Yunan-Roma güləşi üzrə yeniyetmələrin X Respublika Oyunlarının final yarışında rayondan 5 idmançı iştirak edib və layiqli mübarizə aparıb: 2 nəfər 2-ci, 1 nəfər 3-cü, 2 nəfər 5-ci yeri tutub.

Cəlilabadın 1999-2001-ci illər təvəllüdlü sərbəst güləşçiləri Sabirabadda respublika zona birinciliyində qalib gəliblər. Yunan-Roma güləş üzrə yeniyetmələrin zona birinciliyində də nəticə sevindirici olub. Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Gömrükçü" İdman Klubunun taekvondo üzrə açıq birinciliyində rayondan 6 idmançı iştirak edib, uşaqlar arasında 1 nəfər 3-cü yerə layiq görülüb. Bakı şəhərində keçirilən yunan-Roma güləşi üzrə yeniyetmələrin Azərbaycan birinciliyində Cəlilabaddan 1 idmançı 3-cü yeri, 1 nəfərsə 5-ci yeri tutub. Əməkdar məşqçi Oqtay Hüseynovun xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə turnirdə cəlilabadlılar hər üç pillədə yer tuta biliblər.

Cəlilabad Gənclər və İdman İdarəsinin rəisi Ramin Rəhimovun dedikləri:

-Fəxr edirik ki, idarəmiz nazirliyin ən qabaqcıl rayon qurumlarından biridir. Bu adı daim doğrultmağa çalışırıq. Qaynar həyatımız da göstərir ki, Cəlilabad gəncləri hər zaman irəlidə gedirlər. Hazırda mühüm bir ictimai-siyasi hadisə ərəfəsindəyik. Ölkənin Əsas Qanununda dəyişikliklər üzrə referenduma hazırlaşırıq. Dəyişikliklər zamanın tələbidir və bütün dövlətlər üçün xarakterikdir. Təklif edilən layihəyə görə, Əsas Qanuna 29 dəyişiklik nəzərdə tutulur. Xüsusən ölkədə yeni ali səlahiyyət postunun - vitse prezidentlik vəzifəsinin təsis edilməsi, Prezidentlik müddətinin 7 ilədək artırılması normal idarəçilik formasıdır.

Konstitusiyaya ən mütərəqqi dəyişiklik təkliflərindən biri də gənclərin dövlət quruculuğunun bütün təbəqələrində fəal iştirakına şərait yaradılmasıdır. Belə ki, heç bir vəzifədə yaş senzi olmayacaq. Yəni seçkilərdə iştirak hüququ olan hər bir şəxs, xüsusən də 18 yaşından etibarən gənclər seçkili orqanlarda öz şanslarını sınaya biləcək, bacarıqlı, istedadlı ali təhsilli gənclər yüksək vəzifələrə təyinat alacaqlar.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***